BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2006

# «KOROĞLU»NUN A.HAKSTHAUZEN NƏŞRİ

**Ş.Ş.BALAKİŞİYEV**
***Bakı Dövlət Universiteti***

Azərbaycan xalqının möhtəşəm qəhrəmanlıq eposu olan «Koroğlu» dastanının Avropada nəşri və öyrənilməsinin tarixi XIX əsrin əvvəllərindən, əsasən də Azərbaycana səyahət etmiş tarixçi, səyyah, yazıçı və etnoqrafların nəşr etdirdikləri kitablardakı məlumatlar və qeydə aldıqları rəvayətlərlə başlayır. Bu rəvayətlərdən birini də XIX əsrin I yarısında Zaqafqaziyanı səyahət etmiş alman səyyahı, etnoqraf və yazıçısı Baron Avqust fon Haksthauzen yazıya almışdır. Nəsr-yurd hissəsi almanca, şeir parçaları azərbaycanca olan həmin «Koroğlu» hekayəti sonralar «Kor Ubeyd və onun oğlu Koroğlu haqqında tatar rəvayəti» adı altında 1857-ci ildə Sankt-Peterburqda çıxmış «Zaqafqaziya əyaləti» adlı kitabda çap edilmişdir (8, s.149-153).

A.Haksthauzenin qələmə aldığı rəvayət, az fərqlə, daha əvvəl fransız səyyahı Frederix Duboys de Montperunun «Səyahətnamə»sində verilmişdir (10, s.455-457). Frederix Duboysun Qafqaza aid bu əsərində Koroğlu ilə bağlı deyilir ki, Koroğlunun atası İran şahına xidmət etmiş, onun qəzəbinə gələrək kor edilmişdir.

Koroğlu özü odlu silahın və ya barıtın icadından təxminən 40-50 il əvvəl doğulmuşdur. Koroğluya həm də Qaraoğlu da demişlər. Koroğlu tüfəng icad olandan sonra, qəhrəmanlıq dövrünün bitdiyini görüb qeyb olmuşdur.

Qeyd edək ki, F.Duboysun «Səyahətnaməsi» ilə təxminən eyni vaxtlarda «Kavkaz» qəzetində çap olunmuş (bu barədə yuxarıda danışılmışdır) rəvayətdə Koroğlu «Qara oğlu» kimi verilmişdir (9). Bəzi tədqiqatçılar Koroğlunun Qara oğlu adlandırılmasında Koroğlu-Oğuz Xaqan paralelliyinin təzahürünü görmüş və bununla da «Koroğlu» dastanının formalaşmasında Oğuznamə motivlərinin böyük rol oynadığını vurğulamışlar (2,s.38).

Bu xüsusda xatırlamağa dəyər ki, bəzən Qıratın da Qara at adlanması faktları məlumdur. Hətta professor Nizami Cəfərov «Qara at»ı «Qırat»ın daha qədim, arxaik variantı hesab etmişdir:

«Qırat» sözünün müxtəlif etimologiyaları verilmişsə də, fikrimizcə, bu adın «Qara at» (Tobol tatarlarından V.Radlovun topladığı bir əfsanədə Koroğlu - korun oğlunun atı «Qara at»dır) adından törəməsi daha çox özünü doğruldur» (3, s.148).

Frederix Duboysun topladığı rəvayət Avqust Haksthauzenin qeydə aldığı rəvayətlə çox eyniyyət təşkil etsə də, göründüyü kimi, geniş süjetə malik deyildir.

A.Haksthauzenin qeydə aldığı mətn xristian informatordan (Pyotr Nov adlı türk-Azərbaycan dilini gözəl bilən yerli - zaqafqaziyalı

almandan) yazıya alınmasına baxmayaraq, İ.Şopen variantı qədər saxta xristianlıq elementləri ilə «bəzədilməyib». Digər Azərbaycan variantlarında olduğu kimi, burada da Koroğlunun ən yaxın silahdaşları Dəli Həsən və Eyvazdır. Paris nüsxəsində (Xodzko variantında) əsas dəli obrazlarından olan Dəli Mehtərlə Dəli Həsənin eyniliyinə də işarə vurulur (7, s.120). Əksər Azərbaycan variantlarında Qıratı Həmzəyə verdiyinə görə Koroğlunu töhmətləndirən Eyvazla Nigar xanımdırsa, Haksthauzenin topladığı rəvayətdə Koroğluya rişxənd edənin və onunla birgə atın dalınca gedənin də Dəli Həsən olduğu məlum olur. Tarixi prototipinin Cəlalilər hərəkatının rəhbəri Qara Yazıçının qətlindən sonra üsyana başçılıq edən Dəli Həsən olduğu ehtimal edilən bu obraz bəzi variantlarda hətta Koroğlunun oğulluğu kimi də verilir. Xüsusən Orta Asiya versiyalarında bu məqam maraqçəkicidir. «Həsən və ya Həsən xan obrazı «Koroğlu»nun Orta Asiya variantlarında dəyişik məqamlarda işlənmişdir. Bir yerdə o, Koroğlunun Eyvazdan sonra ikinci oğludur. Digər yerdə o, Koroğlunun ən yaxın silahdaşıdır. Özbəklərdə onun igidliyindən bəhs edən bir neçə dastan vardır. «Həsən xanın gəlməsi» və «Dəlli» dastanlarında Dəli Həsənin igidliyi əsas mövzudur. Həsən xanı Koroğlunun ikinci arvadı Misqal Pəri, köynəyinin yaxasından keçirib oğulluğa qəbul etmişdir» (2, s.50-51).

A.Haksthauzenin qeydə aldığı mətndə Həmzənin simasında hiyləgər erməni obrazı vardır. Həmzə bir-sıra variantlarda olduğu kimi Koroğluya qarşı duran mənfi obrazdır.

Y.İsmayılovanın yazdığı kimi, «Keçəl Həmzə «Koroğlu» dastanının mənfi mənada məşhur obrazlarındandır. Öz əxlaqi statusu etibarilə paşalar ilə bir sırada dayanır. Süjet hərəkəti baxımından yardımçı roldadır. Yəni Keçəl Həmzə öz kasıb vəziyyətindən qurtulmaq istəyir. Bunun iki yolu var: Bir Koroğlu dəliləri kimi mübarizə aparmaq (qəhrəman statusu). Bir də hiylə ilə konfliktdən yararlanıb, özünə mövqe qazanmaq (antiqəhrəman statusu). Keçəl Həmzə ikinci yolu seçir. O, mübarizə aparan Koroğlu və düşmənləri arasında manevr edib yararlanır. Bu baxımdan, bütün epik xarakteristikası etibarilə yardımçı obraz statusunda olan antiqəhrəmandır» (5, s.154).

Avqust Haksthauzenin mətnində Koroğlunun dərviş libası geyinib, sultan sarayına getməsi və orada deyişməsi aşıq sənətinin genezisində dini-mistik cərəyanların olması barədə mövcud fikirlərin lehinə tutarlı fakt kimi maraqlıdır. Bu, yəni Koroğlunun padşahın məclisinə, əksər variantlarda olduğu kimi aşıq görkəmində deyil, dərviş kimi getməsi təsadüfi element olmayıb, sufi-dərvişlərlə aşıqların vaxtilə eyni dini missiya daşımasının bir təzahürüdür.

Həmin mətndə Koroğlunun atası Obeid (Ubeyd) adlanır və İran şahının ilxıçısı kimi təsvir olunur. Bu mətndə müəyyən dəyişikliklərlə «Koroğlu» dastanının qızıl fonduna daxil olan «Alı kişi» qolu, «Qıratın Həmzə tərəfindən qaçırılması» epizodu və tüfəng əhvalatı öz əksini tapır. Bu mətndə təsvir edilir ki, Türkiyə sultanı Koroğlunun atını gətirən adama böyük mükafat vəd edir. Bu işi boynuna götürən erməni Həmzə dəyirmanda Koroğluya hiylə gələrək Qıratı aparmağa müvəffəq olur. Dəyirmandan kor-peşiman Çənlibelə dönən Koroğlunu Dəli Həsən, Eyvaz və başqaları:

Verdin Qırı, aldın Dürü,
Bazarın mübarək ola

- deyə məzəmmət edirlər.

Koroğlu «dərviş» paltarında sultanın sarayına gedir. Sarayda sultanın bütün dərvişlərini (aşıq nəzərdə tutulur - Ş.B.) öz gözəl sözləri və qoşmaları ilə bağlayır. Atları tanımaqda xüsusi bacarığı olduğunu bildirən Koroğlu Qıratı hiylə ilə aparmağa müvəffəq olur. Qıratı ilə doğma yurduna-elinə qayıdan Koroğlu dəlilər içərisində gücü, qorxmazlığı, cəsarəti ilə seçilən Dəli Həsənə «işin axırını görməmiş əvvəlcə gülməzlər» deyir (8, s.153).

Göründüyü kimi, Haksthauzen variantında Koroğlunun atını oğurlatdıran Toqqat paşası (V.Xuluflu nəşrində onun adı «Mahmud paşa», M.H.Təhmasib nəşrində isə «Həsən paşa» kimi verilir) deyil, Tobol-tatar versiyasında olduğu kimi, İstanbul padşahıdır.

Mətnin sonunda Koroğlunun aqibətindən bəhs olunur. Günlərin birində Rüstəm pəhləvanın nəvəsinə rast gələn Koroğlu onunla üç gün - üç gecə vuruşur və nəticədə hər ikisi döyüşdə aldıqları yaradan həlak olurlar. Buna bənzər əhvalata yalnız Təbriz koroğluxanlarının dilindən söylənilən variantlarda rast gəlinir. «Koroğlu»nun qədim mətnlərində rast gəlinən belə epizodlar dastanı formalaşdıran xalqın əfsanə və əsatirdən hər dövrün ictimai-siyasi vəziyyətinə uyğun bir şəkildə istifadə etdiyini göstərir.

Koroğlunun İran eposunun ən məşhur qəhrəmanı Rüstəmin nəvəsi ilə qarşılaşması epizodunun «Koroğlu» dastanının Azərbaycan variantları içərisində yalnız burada yer alması ilə bağlı qeyd edək ki, «Koroğlu» dastanını araşdıran bir çox alimlər, məsələn, Ziya Göyalın, Vəli Xuluflu, Xaliq Koroğlu və başqaları «Şahnamə» qəhrəmanı Rüstəm Zal obrazı ilə Koroğlu obrazı arasında Türk (oğuz)-İran folklor əlaqələrindən gələn çoxsaylı oxşarlıqlar olduğunu göstərmişlər. Dastanın Tiflis əlyazma nüsxəsində də Koroğluya qarşı duran bir Rüstəm Paşa obrazı vardır: Ərzincan şəhərinin hakimi olan Rüstəm Paşa öz sərkərdəsi Bürci bəyi Koroğlunun üstünə göndərir. Bürci bəy Çənlibelə (mətndə Çamlıbel) gedərkən, yolda Koroğlu dəlisi Bəlli Əhmədə rast gəlir və onu əsir edib Ərzincana aparır. Bəlli Əhməd əsirlikdə olarkən Rüstəm Paşanın qızı Pəri xanıma aşiq olur. Dəlisinin əsir düşdüyünü eşidən Koroğlu Ərzingana ordu çəkməyə hazırlaşır. Lakin Bəlli Əhməd Pəri xanımın köməyi ilə onunla birgə əsirlikdən qaça bilir və yolda Koroğlu ilə qarşılaşır. Koroğlu Əhmədi təqib edən Bürci bəyi öldürür (6, s.341-358).

Baron fon Haksthauzen daha sonra belə rəvayət edir ki, Koroğlu Bəyazidlə İrəvan arasındakı Koroğlu dağında bir tacirlə qarşılaşır, onun çiynində qəribə alət görüb nə olduğune soruşur. Tacir bunun tüfəng olduğunu deyir və nə cür işlədildiyini Korogluya göstərir. Bir köpəyə atəş açıb onu öldürür. Bunu görən Koroğlu öz dövranının bitdiyini deyib, həmin vaxtdan qeyb olur. Bu epizoda, dəyişik şəkillərdə, «Koroğlu»nun Anadolu və Azərbaycandan toplanmış digər variantlarında rast gəlinməkdədir. Bu məqama diqqət yetirən P.N.Boratav yazır: «Duboys de Monteperu və Baron fon Haksthauzenin bu haqda qeydə aldıqları rəvayətlər, Koroğlunun tüfəngin icadından sonra «Koroğlu, məqsədin hasil oldu» deyib qeyb olması, tamamilə deyilsə belə, digər bəzi rəvayətlərdə də vardır. Eləzizdən toplanmış bir rəvayətdə də Koroğlu ilə çoban arasında de Monteperu və Baron fon Haksthauzen rəvayətinə bənzər bir hadisə olduğu göstərilir və buna dair pozuq bir şer parçası da verilir:

Delikli demir çıktı, merdlik pozuldu,
Getdi dünya merd elinden,
Qaldı namerd ortada» (1, s.60-61).

Avqust Haksthauzen xalq arasında geniş yayılmış bu möhtəşəm dastanı yazıya almaq işində yaxşı bir təşəbbüs göstərmişdirsə də, o, bu vacib və məsuliyyətli işə yüngül, təsadüfi səyyah münasibəti bəsləmiş, prof. P.Əfəndiyevin sözləri ilə desək, ona ekzotik nöqteyi-nəzərdən yanaşmışdır (4, s.61). Bunu biz A.Haksthauzenin «Koroğlu» haqqında olan qeydlərində görürük: «Şairin düşünülməmiş fantaziyası, əvvəli və axırı, ümumi bir ideyası, aydın bir məqsədi olmayan, insan həyatının təsadüfi birləşdirilmiş epizodları olan bu hekayə və mənim mehriban Pyotrumun yeknəsəq səsi mənə dəyirmanın çak-çakı kimi təəssürat bağışladı.

Mən axıra qədər möhkəm yuxuladım. O biri günün səhəri yazmaq istədiyim vaxt Pyotr çoxusunu təkrar etməli və axırını yenidən söyləməli oldu. Əfsanəvi cəhətlər, mövhümi işarələr ola bilsin ki, Şərq tarixini öz nöqteyi-nəzərindən tədqiq edənə maraqlı olmasın...» (8, s.153-154). Məhz belə məsuliyyətsizliyin nəticəsində A.Haksthauzen «Koroğlu» dastanı haqqında nəinki doğru fikir söyləməmiş, hətta onun ideya məzmununu təhrif etməkdən belə çəkinməmişdir.

Fikrimizcə, bütün bunlar burjua cəmiyyətində xalqa, onun yaradıcılıq incilərinə olan mənfi münasibətin təzahürü ilə izah edilməlidir.

Bütün XIX əsr boyu «Koroğlu» dastanı ilə əlaqədar çap olunan rəvayət və variantlarda dastanın ümumi ruhuna tamamilə zidd olan epizodların yer alması təsadüfi olmamışdır. Belə ki, bəşər tarixində xalqı müdafiə edən qəhrəmanlar həmişə istismarçı siniflərin düşməni olduğundan varlılar xalq qəhrəmanını gözdən salmaq üçün müxtəlif yollara əl atmış, qəhrəmana yaraşmayan xasiyyətlər əlavə etməyə çalışmışlar.

«Koroğlu» dastanı haqqında rəvayətlərin çap olunduğu zaman Azərbaycanda müstəmləkəçilik siyasəti yenidən çar hökumətinə qarşı narazılıqlar, kəndli iğtişaşları birinci növbədə qaçaqçılıq hərəkatında özünü büruzə verirdi. Qafqazda çar hakimiyyətinin zəiflədilməsinin qarşısını almaq üçün məmurların xalqın ən çox sevdiyi qəhrəmanlıq dastanlarına əlavə etdiyi parçalar həmin əsəri hörmətdən salmaq, qaçaqçılığı pisləmək və bu zaman belə üsyan başçılarını bu işdən çəkindirmək məqsədi güdmüşdür. «Koroğlu» dastanı kimi xalqın azadlıq hərəkatını bariz şəkildə əks etdirən əsərləri olduğu kimi qiymətləndirmək, onun ideya-bədii məzmununu obyektiv şəkildə şərh etmək hakim təbəqələrin mənafeyinə uyğun gəlmirdi. Unutmayaq ki, XIX əsrdə «Koroğlunu» toplayan, çap eləyən, ondan söz açan şəxslərin əksəriyyəti hakim təbəqənin mövqeyindən çıxış etdiklərinə görə onlar bu əsəri öz dünyagörüşləri nöqteyi-nəzərindən qiymətləndirmişlər. Deməli, XIX əsr boyu və XX əsrin əvvəllərində Koroğlunun soyğunçu, yolkəsən kimi təqdim edildiyi mətnlərdəki epizodlar onu istəməyən, onun mübarizəsindən qorxan hakim sinfin nümayəndələri tərəfindən düşünülmüş şəkildə düzülüb qoşulmuşdur. Doğrudur, Koroğlu bu rəvayətlərdə xalqı müdafiə edən, ədalətli, varlıların düşməni kimi verilsə də, xalqın mübarizə tarixindən təcrid edilir və beləliklə, bu xalq qəhrəmanı kiçilərək yolkəsən, qaçaq, varlıların malını alıb yoxsullara paylayan bir dəstə başçısı kimi təqdim olunur.

Haksthauzen nəşri, bütun qüsurlarına baxmayaraq, Azərbaycan eposunun Avropada və Rusiyada tanınması işində əhəmiyyətli rol oynamışdır. Koroğlu» dastanının bu variantı dastanın tədqiqatı işində əvəzolunmaz mənbələrdən biridir.

## ƏDƏBİYYAT


1. Boratav P.N. Köroğlu destanı. İstanbul, 1983.
2. Bəşirova X. «Koroğlu» dastanı: tarixi- mifoloji gerçəklik və poetika. Bakı: Elm, 2000.
3. Cəfərov N. Eposdan kitaba. Bakı: Maarif, 1999.
4. Əfəndiyev P. «Koroğlu» dastanı rus mətbuatında. //Azərb. SSR EA Xəbərləri / İctimai elmlər seriyası. Bakı, 1958, № 1.
5. İsmayılova Y. «Koroğlu» dastanında obrazlar sistemi. Bakı: Nurlan 2003.
6. Koroğlu. Tiflis nüsxəsi. Tərtib edəni E.Tofiq qızı, ön sözün müəllifləri H.İsmayılov, E.Tofiqqızı. Bakı: Səda, 2005.
7. Koroğlu. Paris nüsxəsi. Çapa hazırlayanı İ.Abbaslı. Bakı: Ozan, 1997.
8. Гакстгаузен А. Татарское предание о слепом Убеиде и его сыне Кероглы //«Закавказский край». Заметки о семейной и общественной жизни и отношениях народов, обитающих между Черным и Каспийским морями. 1 частъ; СПб; 1857.
9. «Сказка о Кара - оглы» / «Кавказ», Тифлис, 1846, № 39
10. Montpereux F.D. Voyage autour du Caucase, chez les Tcherkesses et les Abkhases, en Colechide, en Georgie, en Armenie et en Cremee; 6 volumes, tome III, Paris, 1839.


## ИЗДАНИЕ А.ХАКСТХАУЗЕНЫМ ЭПОСА «КЕРОГЛУ»


**Ш.Ш.БАЛАКИШИЕВ**


### РЕЗЮМЕ


В статье говорится о том, что слышал на Кавказе немецкий путешественник, этнограф и писатель Барон Август фон Хакстхаузен об эпосе «Кероглу» и исследуется татарская притча «Слепой Убейд и его сын Кероглу», вышедшая в Санкт-Петербурге в книге «Закавказский округ» в 1857 году.

В то же время писание А. Хакстхаузена сравнивается с высказываниями других западных его современников об эпосе «Кероглу», живших в 1-ой половине 19 века. Автор статьи приводит факты, делает заключение, что высказывания А. Хакстхаузена об эпосе «Кероглу» более передовые, чем мнения и суждения его современников.

В статье приводятся мысли и высказывания азербайджанских исследователей по поводу писания А. Хакстхаузена «Кероглу».


## PUBLICATION OF EPOS «KOROGLUH» BY A.KHAKSTKHAUREN


**Sh.Sh.BALAKISHIYEV**


### SUMMARY


In the artcle is spoken about the German traveller, the ethnographer and the writer Baron Aygust Fon Khakctkhauren heard in Caucausus, about the epos «Korogluh» and is investigated the tatar parable Blind Ubeid and his son «Korogluh» printed in Sank Petersburq in the book of «Transcaucasian dictrict» in 1857.

At the same time A.Khakstkhan rens writings are compared with the ctatements of other western contemporaries about epos of «Korogluh», who lived in the first half of XIX century.

The author of the article mentions the facts, compares them and comes to a conclusion that A.Khakstkhaurens thoughts and opinions about epos Korogluh are more advanced, than the ideas and judgements of his contemporaries.

In this article the ideas and the ctatements of Azerbaijani researchers concerning the writings an A.Khakstkhauren about «Keroglu» are presented.